iyyətinin yaranmasının 100 illiyi

MÜSƏLMAN ŞƏRQİNİN İLK HÜQUQİ, DEMOKRATİK, DÜNYƏVİ DÖVLƏTİ

28 may 1918-ci ildə şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə parlamentli respublika kimi yeni bir dövlətçilik ənənəsinin əsası qoyulmuşdur. Zəngin keçmişə malik Azərbaycan xalqının milli və mənəvi, sosial-iqtisadi həyatında parlaq səhifəyə çevrilən bu tarixi hadisənin 100 illiyi tamam olur. Möhtərəm Prezidentimiz İlham Əliyevin milli dövlətçilik salnaməsini müstəsna dərəcədə zənginləşdirmiş Azərbaycan Xalq Cümhuriyyətinin yubileyinin keçirilməsi barədə imzaladığı sərəncamda qeyd olunur ki, qədim və zəngin dövlətçilik ənənələrinə malik Azərbaycan xalqı keçmişinin müəyyən dövrlərində tarixin hökmü ilə böyük imperiyalar tərkibinə qatılmaq məcburiyyətində qalmışdır. Azərbaycan Xalq Cümhuriyyəti məhz dünyanın siyasi nizamının yenidən qurulduğu bir vaxtda, XIX əsrin və XX əsrin əvvəllərində Azərbaycanın yaşadığı mədəni yüksəliş mərhələsinin məntiqi yekunu kimi meydana çıxmışdır.

İstiqlal bəyannaməsini qəbul edən Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü olduqca çətin tarixi vəzifəni imkanlarının ən son həddində çalışaraq şərəflə yerinə yetirdi. Cəmi 23 ay fəaliyyət göstərsə də, dövlət və ictimai baxımdan inkişaf və tərəqqi üçün zəmin hazırlayan mühüm əhəmiyyətli işlər həyata keçirildi. Ölkənin ərazi bütövlüyü və milli təhlükəsizliyi təmin edildi, sərhədləri müəyyənləşdirildi. Azərbaycanın ilk parlamenti və hökuməti, dövlət aparatı təşkil edildi. Qısa müddətdə yüksək döyüş qabiliyyəti, hərbi hissələr yaradıldı. Dövlət atributları qəbul edildi. Müstəqil Azərbaycanın bayrağı, himni, gerbi yaradıldı. Xalqın varlığını təsdiq edən ana dili dövlət dili elan edildi. Milli mənəvi və demokratik dəyərlərə xüsusi önəm verildi, dövlət quruculuğu sahəsində mühüm əhəmiyyətli tədbirlər həyata keçirildi. Milli tələblərə və demokratik prinsiplərə uyğun dövlət orqanları quruldu. Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi. Şərqdə ilk dəfə Azərbaycanda qadınlara hüquq bərabərliyi verildi. Xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı.

Azərbaycan Xalq Cümhuriyyəti təcavüzə məruz qaldığı üçün qarşıya qoyduğu məqsədlərə tam müvəffəq ola bilmədən süquta uğrasa da, onun şüurlarda bərqərar etdiyi müstəqillik ideyası unudulmadı. 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdi. Ümummilli lider Heydər Əliyevin dediyi kimi bu hadisə tarixin öz hökmü, qarşısıalınmaz bir zərurət kimi meydana çıxmışdır. Lakin, tarix həm də təsdiq etmişdir ki, suverenliyi qazanmaq heç də hər şey deyildir. Əsas məsələ onu qorumaq, möhkəmləndirmək, əbədiliyini təmin etməkdir. Bu tarixi missiyanı şərəflə yerinə yetirmək və bütün mənalı ömür yolunu xalqa və dövlətə təmənnasız xidmət etmiş, müdrik şəxsiyyət, müasir Azərbaycanın qurucusu ulu öndər Heydər Əliyevə nəsib olmuşdur. 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan ümummilli lider yenidən müstəqilliyə qovuşmuş ölkəni o zaman baş verən ziddiyyətli proseslərdən xilas edərək, fundamental islahatlar yolu ilə Azərbaycanın siyasi, iqtisadi, sosial sistemini yeniləşdirmək yolunda qətiyyətli, məqsədyönlü gələcəyə hesablanan ardıcıl tədbirlər həyata keçirdi. Ulu öndərin rəhbərliyi ilə müstəqil Azərbaycanın sivil dövlətçilik tarixində mühüm yer tutmuş Azərbaycan Xalq Cümhuriyyətinin demokratik ənənələri uğurla davam etdirilməyə başladı. Ümummilli liderimiz deyirdi: "Azərbaycan Respublikasının dövlət müstəqilliyi 1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Respublikasının ənənələri əsasında müasir tələblərlə, dünyada gedən proseslərlə bağlı olaraq təmin olunmalıdır. Bu sahədə mən daim çalışacağam və heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm". Məhz Heydər Əliyevin şəxsiyyətində olan milli iradə, möhtəşəm xalq ruhudur ki, ölkəmizi hər cür problemlərdən çıxararaq əbədi müstəqilliyimizə təminat verdi.

Ulu öndərin çoxşaxəli fəaliyyətinin önəmli cəhətlərindən biri də demokratik meyarların daha möhkəm özüllər üzərində inkişaf tapması, vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu ilə xarakterizə olunur. Həyata keçirilən tədbirlər cəmiyyət həyatının bütün sahələrini əhatə edərək ölkəmizdə siyasi, iqtisadi və hüquqi sistemin əsaslı surətdə dəyişməsi ilə səciyyələnərək ən müasir dünya standartlarına uyğunlaşdırılmışdır. Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə ölkəmizdə reallaşdırılan hüquqi islahatlar, qanunvericilikdə edilən dəyişikliklər, yeni institusional təsisatların yaradılması Azərbaycanın qarşısında tamamilə yeni mərhələnin açılmasına rəvac vermişdir. Tarixi prosesləri yönəltmək məharətinə, cəmiyyətin maraq və mənafelərini ümumi bir nöqtədə birləşdirmək bacarığına malik ulu öndərin böyük müdrikliklə yaratdığı milli dövlətçiliyin müasir modeli öz unikallığı ilə fərqlənir, eyni zamanda Azərbaycanın bütün inkişaf istiqamətlərini də özündə birləşdirir. Onun dövlət quruculuğu, yaratdığı mükəmməl siyasi-iqtisadi konsepsiya hələ bundan sonra da Azərbaycanın tərəqqisinin yüksək dinamizmə əsaslanmasını təmin edəcək, ölkəmizə yeni-yeni uğurlar qazandıracaqdır. Ümummilli liderimiz bütün fəaliyyət dövründə yalnız xalqına arxalanırdı, xalqımız da həmişə ona inanır, dəstəkləyirdi. Ulu öndər Heydər Əliyev güclü dövlət yaratmaqla yanaşı, onu özündən sonra inamla idarə edəcək, mütərəqqi islahatları uğurla təmin edəcək müasir lideri də xalqımıza bəxş etmişdir. "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" - deyən Heydər Əliyevin layiqli davamçısı kimi təqdim etdiyi möhtərəm Prezidentimiz İlham Əliyevin son 15 illik fəaliyyəti dövründə müstəqil respublikamızın əldə etdiyi uğurlar onun bu seçimində də yanılmadığını təsdiq edir. Hələ 2003-cü il Prezident seçkilərində cənab İlham Əliyev bəyan etmişdir ki, "Azərbaycanın daha qüdrətli, güclü dövlətə çevrilməsi üçün Heydər Əliyev siyasəti davam etdirilməlidir", "Mən hər bir azərbaycanlının Prezidenti olacağam". Möhtərəm Prezidentimiz müstəqil respublikamıza on beş illik rəhbərliyi dövründə verdiyi bütün vədləri qətiyyətlə, idarəçilik məharəti ilə yerinə yetirdi. Bu gün müstəqil respublikamız güclənir, beynəlxalq nüfuzu artır, xalqın həyat səviyyəsi yüksəlir. Bu ilin aprel ayında keçirilən prezident seçkilərində də xalqımız ulu öndərin siyasi kursunun davam etməsi arzusu ilə inandığı və gələcəyini etibar etdiyi cənab İlham Əliyevə yenidən etimad göstərdi. Bu seçim həm də indiyə qədər görülən işlərə verilən yüksək qiymətdir. Möhtərəm Prezidentimiz bildirir ki, "Bir daha demək istəyirəm ki, mənim dünyagörüşüm belədir, mənim fəlsəfəm belədir: "Mən Azərbaycanı müasir dövlət kimi görmək istəyirəm. Zəngin, iqtisadi cəhətdən möhkəm, siyasi cəhətdən azad, müasir, dünyaya açıq, əməkdaşlığa hazır, öz mövqeyini müdafiə edən, qüdrətli ordu potensialına malik olan, öz ərazi bütövlüyünü bərpa edən ölkə kimi görmək istəyirəm və bu yolda əlimdən gələni edəcəyəm. Məni bu yoldan heç kim və heç nə döndərə bilməz!". İnanırıq ki, onun rəhbərliyi ilə dövlətçilik ənənələrini yaşadan müstəqil respublikamız bundan sonra daha da çiçəklənəcək, hər birimiz belə bir ölkədə yaşamağımızla qürur duyacağıq.

Arifə QASIMOVA,
Ağstafa Rayon Qeydiyyat Şöbəsinin rəisi, ədliyyə müşaviri.